

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 sentyabr 2023-cü il №70 (2782) https://mod.gov.az Qiymət 30 qəpik


## İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının Bakı şəhərində keçirilən 4-cü iclasında səmimiyyətlə salamlayıram.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının üzvü olduğu ilk təşkilatlardan biri də İƏT olmuşdur.

Sevindirici haldır ki, İƏT-in fəal üzvü kimi təşkilata üzv dövlətlərlə dostluq və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığımız beynəlxalq platformalar çərçivəsində də uğurla inkişaf edir.

Bildiyiniz kimi, Ermənistan Respublikası 30 ilə yaxın ölkəmizin 20% torpaqlarını işğal altında saxlamışdır. Fürsətdən istifadə edərək, işğal zamanı və sonrakı mərhələdə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə İƏT-ə üzv ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Bu dövr ərzində orada insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, etnik təmizləmə aparılmış, həmin ərazilərimiz narkotik vasitələrin yetişdirilməsi və daşınması, habelə beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilmişdir.

2020-ci ildə bu ərazilərimiz işğaldan azad edildikdən sonra isə Azərbaycan digər çağırışlarla qarşılaşmışdır. Ölkəmizin şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr dağıdılmış, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə 4000-ə yaxın insan itkin düşmüşdür ki, onların taleyi ilə bağlı qarşı tərəf hələ də heç bir məlumat vermir. Ermənistan işğal etdiyi ərazilərimizdə bir milyona yaxın mina basdırmış, urbisid, kultursid və ekosid cinayətləri törətmişdir. İşğala son qoyulan kimi dövlətimiz bütün gücünü səfərbər edərək bu ərazilərdə geniş quruculuq və bərpa işlərinə, erməni vandalizminin nəticələrini aradan qaldırmağa başlamışdır.

Hörmətli iclas iştirakçıları, hər bir dövlətdə xalqın rifahının təmin edilməsini şərtləndirən iqtisadi inkişaf və hüquq qaydasının mövcudluğudur. Cinayətkarlıq qeyd olunan amillərə ciddi təhlükə olmaqla beynəlxalq səviyyədə mübarizənin aparılmasını tələb edən fenomendir. Bu sahədə, xüsusilə transmilli cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir.

Qlobal və regional təhdidlərin, islamafobiya meyillərinin artdığı bir zamanda İƏT-ə üzv dövlətlərin prokurorlarının qarşısında yeni vəzifələr durur. Narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, korrupsiya, kibercinayətkarlıq, çirkli pulların yuyulması və sair cinayətlər beynəlxalq terrorçuluğun maliyyə mənbəyi olmaqla bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır.

Əminəm ki, vacib məsələlərin müzakirəsi iştirakçılara beynəlxalq təcrübədən faydalanmaq imkanı verməklə insan hüquqlarının müdafiəsi və iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması istiqamətində əməkdaşlığı daha da möhkəmləndirəcəkdir.

Hesab edirəm ki, ölkəmizin İƏT-də sədrliyi dönəmində üzv dövlətlərin baş prokurorlarının bugünkü iclası regionumuzda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2023-cü il

## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak etmək üçün sentyabrın 14-də Tacikistana səfər edib.*

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Sentyabrın 14-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

Dövlətimizin başçısı İlham Əliyevi salamlayan Prezident **Emoməli Rəhmon** deyib:

- Hörmətli İlham Heydər oğlu, Sizi Tacikistanda salamlayıram. Elə bu yaxınlarda biz birlikdə Sizin Tacikistana dövlət səfərinizi həyata keçirdik. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Sammitdə - Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etmək üçün dəvətimizi qəbul etdiyinizə görə sağ olun.

Prezident **İlham Əliyev**: Emoməli Şaripoviç, sağ olun. İlk növbədə, bu mühüm tədbirdə fəxri qonaq qismində iştirak etmək üçün dəvətinizə görə təşəkkürümü bildirmək istərdim. Mən bunu çox yüksək qiymətləndirirəm. Belə mühüm tədbirdə iştirak etmək mənim üçün böyük şərəfdir və xüsusilə yenidən gözəl Düşənbə şəhərində olmaq xoşdur.

Prezident **Emoməli Rəhmon**: Sağ olun.

Prezident **İlham Əliyev**: Siz mənim çox uğurla və yaxşı nəticələrlə keçən dövlət səfərimi qeyd etdiniz. Mən dialoqumuzu davam etdirmək məqsədilə Sizin üçün əlverişli vaxtda Azərbaycana dövlət səfəri etməyinizlə bağlı artıq Sizə rəsmi məktub göndərmişəm.

Prezident **Emoməli Rəhmon**: Çox Sağ olun.

* * *

Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib.

Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış ediblər.

Sonra çıxış üçün söz dövlətimizin başçısına verilib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Emoməli Şaripoviç.

Hörmətli dövlət başçıları, əziz dostlar.

Əvvəlcə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünün işində fəxri qonaq kimi iştirak etmək məqsədilə dəvətə görə Tacikistan Prezidenti, hörmətli Emoməli Şaripoviç Rəhmona təşəkkür etmək istərdim. Eyni zamanda, bu tədbirdə Azərbaycanın iştirakına verdikləri dəstəyə görə hörmətli həmkarlarıma minnətdarlığımı bildirirəm.

Mən bu il qardaş Tacikistana ikinci dəfə səfər edirəm. Apreldəki dövlət səfərim, səfər çərçivəsində qəbul olunmuş qərarlar və imzalanmış sənədlər münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdi. Tacikistan Prezidentinin Azərbaycana dövlət səfərini səbirsizliklə gözləyirik. Əminəm ki, səfər əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu fürsətdən istifadə edərək dost Tacikistan xalqını Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm.

Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri




(Əvvəli 1-ci səhifədə)

Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

Mən Məşvərət Şurasının işində ilk dəfədir iştirak edirəm və əminliyimi bildirirəm ki, regional əməkdaşlığın bu formatı ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq.

Son iki il ərzində mən Mərkəzi Asiya dövlətlərinə doqquz səfər etmişəm. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları Azərbaycana dəfələrlə səfərlər ediblər. İlin sonuna qədər qarşılıqlı səfərlərin fəal dinamikası davam etdiriləcək.

İkitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı artıma malikdir. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətləri bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır.

Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

Azərbaycan Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq, biz gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal çalışırıq. Yeni sərmayə layihələri başa çatdıqdan sonra istehsal olunan tanker və quru yükdaşıyan gəmilərin sayı bu gün ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılması, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır.

Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız "Rəqəmsal İpək Yolu" layihəsidir.

Hörmətli həmkarlar, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nın yaradılmasının 25 ili tamam olur. Mən dəyərli dövlət başçılarına rəsmi dəvətləri göndərmişəm və bu ilin noyabrında Bakıda Sammitdə sizi görməkdən məmnun olaram.

Bu gün keçirilən görüşə dəvətə görə bütün dövlət başçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm və Mərkəzi Asiyanın qardaş xalqlarına sülh, əmin-amanlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin keçirilməsi təşəbbüsü 2017-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən irəli sürülüb. Birinci görüş Qazaxıstanda, ikinci görüş Özbəkistanda, üçüncüsü Türkmənistanda, dördüncüsü isə Qırğızıstanda keçirilib.

* * *

Sentyabrın 14-də Düşənbədə Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun təltifolunma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.



* * *

Sentyabrın 14-də Tacikistanın paytaxtı Düşənbə şəhərində "Dostluq Axşamı" konsert proqramı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlər konsertə baxıblar.



* * *

Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən digər prezidentlər Düşənbədəki "EKSPO Mərkəzi Asiya 2023" sərgisi ilə tanış olublar.



Tacikistan hökumətinin dəstəyi ilə təşkil olunan sərgidə aparıcı şirkətlər öz məhsullarını təqdim edirlər.

Sərgidə məqsəd istehsalat müəssisələrinin məhsullarının təqdimatı və Mərkəzi Asiya ölkələri arasında ticarət əməkdaşlığının möhkəmləndirilməsidir.

Mərkəzi Asiya ölkələrinin salonlarında geniş çeşiddə yüngül sənaye və baramaçılıq məhsulları, hidroenergetika və innovasiya avadanlıqları, məişət texnikası, həmçinin ət və süd məhsulları, meyvə quruları, konservlər, sərinləşdirici içkilər və digər məhsullar təqdim olunur.




Açıq meydanda Mərkəzi Asiya ölkələrinin minik, sərnişin və yük avtomobilləri, hərbi-müdafiə nəqliyyat vasitələri, eləcə də kənd təsərrüfatı texnikası sərgilənir.

Sərgidə, həmçinin Aralı Xilasetmə Beynəlxalq Fondunun və Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətinin nəticələri və nailiyyətləri təqdim olunur.

Ekspozisiyada qədim zamanlarda İpək yolu vasitəsilə ticarət və müxtəlif dövrlərdə tacik sənətkarların fəaliyyəti barədə də ətraflı məlumat verilir.

Ayrıca sahədə Tacikistanın hidroenergetika resursları təqdim edilir.

Sonra dövlət başçıları Özbəkistan, Qazaxıstan və Türkmənistanın sənaye məhsulları sərgisində olublar.

Qeyd edilib ki, belə böyük regional sərginin təşkili ticarət əməkdaşlığının genişləndirilməsinə, ölkələrdə istehsalat sahələrinin və müəssisələrinin fəaliyyətinin inkişafına, sənaye məhsullarının çeşidinin və həcminin artırılmasına kömək edir.

* * *

Sentyabrın 14-də Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlərin şərəfinə rəsmi qəbul verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra dövlət başçıları Tacikistanın təbii sərvətlərinin nümayiş olunduğu sərgiyə baxıblar.

Daha sonra prezidentlər çay süfrəsi arxasında söhbət ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 15-də başa çatıb.

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə naziri ilə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında telefon danışığı olub

*Sentyabrın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri arasında telefon danışığı olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tərəflər regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

General-leytenant M.H.Baqeri öz növbəsində bəzi qüvvələrin ölkələrimiz arasında mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirmək məqsədilə guya İranın Azərbaycanla sərhədə canlı qüvvə və hərbi texnika toplaması, müxtəlif təlimlər həyata keçirməsi ilə bağlı yaydıqları yalan məlumatların heç bir real əsası olmadığını vurğulayıb.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

# Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu "Türk Şəhidliyi" abidəsini ziyarət edib



*Sentyabrın 15-də Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Bakı şəhərinin azad edilməsinin 105 illiyi ilə əlaqədar olaraq "Türk Şəhidliyi" abidəsini ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, abidə qarşısına Müdafiə Nazirliyi adından qızılgül çələngi qoyulub, qərənfillər düzülüb və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

## Hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində hərbi qulluqçularımız həlak olublar

Sentyabrın 13-ü çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğlu həlak olub.

Müdafiə Nazirliyinin rəhbərliyi bədbəxt hadisə nəticəsində həlak olan hərbi qulluqçuların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Faktla bağlı araşdırma aparılır.

# Hərbi liseydə andiçmə mərasimi keçirildi





Tədris ilinin başlanması münasibətilə Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyinə yeni qəbul olan kursantların andiçmə mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin şəxsi heyəti, müəllimlər, valideynlər, ictimaiyyət nümayəndələri və qonaqlar iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan sonra hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edildi. Liseyin Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rəşad İbrahimov çıxış edərək əlamətdar gün münasibətilə kursantları təbrik etdi, onlara hərbi təhsildə müvəffəqiyyətlər, gələcək xidmətlərində uğurlar arzuladı.

Polkovnik Rəşad İbrahimov qeyd etdi ki, Azərbaycan xalqının taleyində, dövlətin və dövlətçiliyin formalaşmasında əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaradıb. Ulu Öndər Heydər Əliyev böyük təzyiqlərə baxmayaraq bu təhsil ocağının yaradılmasına nail olub. O, bu liseyin əsasını qoyanda əmin idi ki, Azərbaycan xalqı öz azadlığını əldə edəcək və müstəqil Azərbaycan dövləti yaranacaqdır. Yəni, Heydər Əliyev sizin timsalınızda burada təhsil alanları müstəqil Azərbaycan Ordusunda xidmət edəcək zabitlər kimi görürdü. Bu gün Azərbaycan müstəqil, dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Siz Ulu Öndər Heydər Əliyev tərəfindən yenidən qurulan və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da inkişaf edəcək Azərbaycan Ordusunda xidmət edəcəksiniz. Siz hərbi liseydə dərslərinizə məsuliyyətlə yanaşmalı, əsl hərbçi kimi yetişməlisiniz. Əminəm ki, siz hərbi təhsilinizi uğurla davam etdirəcəksiniz.



Liseyin müəllimi Zemfira Şəfiyeva Şərəf Andını qəbul edən kursantlara uğurlar diləyərək onlara seçdikləri bu məsuliyyətli yolda uğurlar arzuladı.

Kursantlar adından çıxış edən ən yüksək balla liseyə qəbul olan Rüfət Rzayev dərslərdə inamla çalışacaqlarına, müəllim və komandirlərin öyrətdiklərini dərindən mənimsəyəcəklərinə, Vətən, dövlət və xalq qarşısında vəzifələri layiqincə yerinə yetirəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz verdi. "Bu gün biz kursantlar üçün əlamətdar və qürurverici bir gündür. Şərəf Andı içərək rəşadətli ordumuzun zabiti olmaq üçün ilk addımlarımızı atırıq. Hərbin sirlərinə yiyələnəcəyimiz bu hərbi təhsil ocağı xalqımıza qələbə sevincini yaşadan yüzlərlə qəhrəman oğullar bəxş edib. Onların həyat və xidmət yolu hər birimizə nümunə olacaqdır. Sevinirəm ki, əsl vətənpərvər, Vətən torpağına olan sevgisini əməlləri ilə sübut etmiş, döyüş meydanında igidlik nümunələri göstərmiş zabitlər tərəfindən bu şərəfli yolda lazımi biliklərə yiyələnəcəyik. Kursant yoldaşlarım adından söz verirəm ki, Vətən, dövlət, xalq qarşısında üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcək, hərbçi şərəfini uca tutacaq, Vətənimizin müdafiəsində məğrur dayanacaq, torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacağıq", - kursant R.Rzayev dedi.

Kursant Rüfət Rzayevin atası Rauf Rzayev də çıxış edərək oğlunun hərbçi peşəsini seçdiyi üçün qürurlandığını bildirdi. Onun timsalında bütün kursantları təbrik edərək hər zaman Vətənə sədaqətlə xidmət etmələrini arzuladı.

Çıxışlardan sonra kursantlar hərbi orkestrin müşayiətilə "Naxçıvanskilər marşı"nı ifa etdilər.

Tədbir şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçməsi ilə başa çatdı.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyinin məlumatı

Sentyabrın 14-ü saat 14:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Xaçik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 14-ü saat 19:35-də Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Zamanlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

Bundan başqa, saat 19:05-dən 19:25-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

* * *

Sentyabrın 15-i saat 09:30-da Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Hərbi institutda “Bilik günü” qeyd edilib



*Sentyabrın 15-də Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda yeni tədris ilinin başlanması münasibətilə mərasim keçirilib.*

Mərasimdə Milli Müdafiə Universitetinin rəhbərliyi, Müdafiə Nazirliyinin nümayəndələri, hərbi institutun şəxsi heyəti, müəllimlər, eləcə də digər qonaqlar iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızım xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev çıxış edərək mərasim iştirakçılarını salamlayıb, yeni tədris ilinin başlanması ilə əlaqədar şəxsi heyəti Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib.

General-leytenant H.Piriyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təhsil sisteminin inkişafına göstərdiyi qayğıdan, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatların müsbət nəticələrindən, eləcə də ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb.





Mərasimdə kursantların hazırlıq səviyyəsinin artırılması, nizam-intizamın və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq tapşırıqları çatdırılıb.

Digər çıxış edənlər yaradılan hərtərəfli şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Sonra 2022-2023-cü təhsil ilində təlim və tədrisdə fərqlənən bir qrup kursant mükafatlandırılıb.

Sonda Milli Müdafiə Universitetinin rəhbərliyi pedaqoji kollektivlə görüşüb, dərslərin daha keyfiyyətli keçirilməsi ilə bağlı tövsiyələrini çatdırıb.





# Hərbi andiçmə - hərbi xidmətin başlanğıcı



*Hərbi andiçmə hər bir kursantın ömrünün ən yaddaqalan gününə dönür. Bu andlar sədaqət deməkdir, inandırmaqdır - Vətən naminə xidmət üçün içilən bu andlar amal deməkdir. Üçüncü ildi hərbi təhsil müəssisələrinə daxil olan kursantlar Böyük Qələbəmizin qüruru ilə Hərbi And, Şərəf Andı içirlər. Bu qürur əbədiyyən yaşadılacaq. Kursantlar gələcəyin zabitləri kimi bu mərasimi hərbi xidmətin başlanğıcı bilirlər.*

**Kursant Hikmət İbrahimov:**

- Hərənin peşə seçiminə müəyyən amillər təsir göstərir. Tam əminliklə deyə bilərəm ki, son üç ildə gənclərin peşə seçimində Vətən müharibəsinin böyük təsiri olub. Yəni, gənclər onsuz da Vətəni sevir, Vətən müharibəsi bu sevgini daha da müqəddəsləşdirdi.

Hər bir azərbaycanlı kimi, mən də tarixi Zəfərimizi xalqımız üçün dünyəvi qürur bilirəm. Əgər əmim hərbçi olmasaydı, yəqin ki, mən də məhz bu amilə görə hərbçi olmağı qərara alardım. Əmim hərbçidir. Onu hərbi mundirdə görəndə sevinirdim, əmim də, valideynlərim də mənim sevincimə sevinirdilər. Fikrimi bəyənmişdilər, arzuma, niyyətimə xeyir-dua vermişdilər.



Bu il mən də sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdim. İmtahanlarda yaxşı nəticə göstərdim, qəbul olundum. Bunu uğur hesab edirəm. Mən də kursant olmaq üçün illərlə bu arzu ilə yaşamışam, indi arzuma çatmışam. Bu günün sevincini heç zaman unutmayacam. Mənimlə orta məktəbdə bir sinifdə oxuyan yoldaşlarımın da qürurlandığına əminəm.

Hərbi liseyə qəbul olunan bütün kursantları təbrik edirəm. Biz kursant kimi Şərəf Andı içdik. Qəbul sevincini Şərəf Andı içmə mərasimi tamamladı. Bu günü tarixi gün kimi xatırlayacağıq.

**Kursant Ruslan Səfərli:**

- Bu gün mən və kursant yoldaşlarım üçün unudulmaz və qürurverici bir gündür. Hər birimiz məktəb sıralarından ayrılıb ordu sıralarına ilk qədəmlərimizi qoyuruq. Düşüncələrimiz və gündəlik həyat tərzimiz fərqli ola bilər, ancaq Vətənimizə, millətimizə, xalqımıza sevgimiz eynidir. Bu gün Şərəf Andını qəbul etdik.

Mənim dayım da Vətən müdafiəçilərindəndir. Hazırda işğaldan azad olunmuş Kəlbəcər rayonunda xidmətini davam etdirir. Məndə hərb sənətinə marağı dayım yaradıb. Xatırlayıram: hələ uşaq yaşlarımda dayım bizə gəldiyində daim vətənpərvərlik mövzusunda söhbətlər edər, hərbçi olmağın necə şərəfli bir peşə olduğunu deyərdi. Onu hərbi formada gördükcə bu geyimə sevgim daha da artardı. Mənim də dayım kimi zabit olmaq istəyimi bildikdə valideynlərim çox sevindi. Liseyə qəbul imtahanlarında iştirak etdim. İmtahanlarda müvəffəqiyyət qazanaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı adını qazandım. Söz verirəm ki, bundan sonra da dərslərimə məsuliyyətlə yanaşacaq, valideynlərimin mənə inamını doğruldaraq Azərbaycan Ordusunun şərəfli zabiti olacağam. Kursant yoldaşlarımı Şərəf Andı içmələri və yeni tədris ili münasibətilə təbrik edirəm.

# Hərbi Prokurorluğun Ulu Öndərin 100 illik yubileyi münasibətilə keçirdiyi silsilə tədbirlər davam etdirilir

*Hərbi Prokurorluğun Ulu Öndərin 100 illik yubileyi münasibətilə keçirdiyi silsilə tədbirlər davam etdirilir.*



Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, Müdafiə Nazirliyi ilə birgə "N" hərbi hissəsində keçirilən tədbirdən əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, qazilərə şəfa arzulanıb.

Mərasimdə əvvəlcə Baş Prokuror Kamran Əliyevin və Hərbi Prokuror Xanlar Vəliyevin salamları şəxsi heyətə çatdırılıb.

Sonra çıxış edən baş ədliyyə müşaviri Firad Əliyev və ədliyyə müşaviri Samir Əzimzadə, "Vətənpərvərliyin təbliğinə dəstək" İctimai Birliyinin sədri, vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlı, eləcə də hərbçilər və digər şəxslər müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.



Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

Ardınca Şəmistan Əlizamanlı vətənpərvər mahnılar oxuyub.

Tədbirdən sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.



# Türkiyə ilə hərbi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib

*13 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı Hərbi attaşesi polkovnik Müşfiq Məmmədov Türkiyə Hərbi Hava Qüvvələrinin Komandanı ordu generalı Ziya Camal Kadıoğlunu vəzifəyə təyin olunması münasibətilə ziyarət etmişdir.*



Görüşdə Hərbi Attaşelik Aparatının nümayəndələri də iştirak edib. Ziyarət zamanı Azərbaycan Ordusunun rəhbərliyinin səmimi təbrikləri qarşı tərəfə çatdırılmış, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri arasındakı qarşılıqlı fəaliyyət, hərbi, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Görüş zamanı, həmçinin keçirilən birgə təlimlərdə hərbçilərimizin qazandığı təcrübənin əhəmiyyəti də qeyd olunub. Hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb, strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd olunub. Sonda Hərbi attaşe polkovnik Müşfiq Məmmədov qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi üçün fəaliyyətlərinin bundan sonra da ardıcıl şəkildə davam edəcəyinə əminliyini vurğulayıb.

**"Azərbaycan Ordusu"**

## "Təəssüf ki, Ermənistan bizə kütləvi məzarlıqlar barədə məlumatları vermir"

Bizim problemli məsələlərdən biri də Birinci Qarabağ müharibəsində itkin düşmüş soydaşlarımızın tapıntıları ilə bağlıdır. Bu istiqamətdə bütün dövlət qurumları tərəfindən işlər gedir. Hazırda qazıntı, tikinti işləri aparıldıqca tapıntılar aşkar olunur, dərhal ekspertizaya göndərilir. Prokurorluq orqanları tərəfindən bunlar hamısı rəsmiləşdirilir, DNK nümunələri götürülür və ekspertizalar aparılır.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deyib.

Bildirib ki, bütün şəxsiyyətlərin müəyyənləşməsi ilə bağlı işlərimiz davam edir. Təəssüf ki, Ermənistan bizə kütləvi məzarlıqlar barədə məlumatları, xəritələri vermir. Verilən xəritələrin əksəriyyəti reallığa uyğun deyildi. Amma biz bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.



# HHM bölmələrində döyüş atışları icra olunub





Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələrində sutka boyu fasiləsiz olaraq xidmət aparılır, hava məkanımız daima izlənilir və müvafiq tədbirlər görülür.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2023-cü ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə (HHM) bölmələrində döyüş atışları icra edilib.

Atış çalışmalarında döyüş heyətləri tərəfindən "İldırım 8-ER" ZRK-nın start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması, eləcə də şərti düşmən tərəfindən atılan ballistik raketin aşkar olunaraq məhv edilməsi üzrə tapşırıqlar uğurla yerinə yetirilib.

Atışların keçirilməsində əsas diqqət şəxsi heyətin raket əleyhinə müdafiə qabiliyyətli zenit-raket komplekslərini (ZRK) idarəetmə bacarıqlarının artırılmasına, heyətlər arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsinə və bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəldilib.

# Tariximizin unudulmayacaq şərəfli səhifəsi

*Yaşanılmış zaman sübut edir ki, böyük tarixi hadisələr heç vaxt unudulmur, illərin yaddaşına hopur. 15 sentyabr 1918-ci ildə baş verən tarixi hadisə kimi. Həmin gün xalqımızın tarixinə Bakının erməni-bolşevik qüvvələrindən azad olunduğu gün kimi yazılıb. Bu tarixi gün hamımız üçün unudulmaz və şərəflidir. Bu tarixi hadisə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix kimi xatırlanır.*



*15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakıda*

Keçmiş ittifaq süquta uğradıqdan sonra xatırlanması qadağan olunmuş bu tarixi hadisənin üstünə həqiqətin gur işığı düşdü. İllər sonra biz bu hadisəni öyrəndikcə babalarımızın igidliyi, qəhrəmanlığı ilə qürur duyduq.

1918-ci il mayın 28-də, olduqca çətin, keşməkeşli bir dövrdə Milli Şura Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını dünyaya bəyan etdi. Həmin vaxtlarda Azərbaycan ərazisinin xeyli hissəsi, o cümlədən Bakı şəhəri və ətraf rayonlar erməni-bolşevik qüvvələrinin və havadarlarının nəzarəti altında idi. Azərbaycan Xalq Cümhuriyyətini yaratmaq, yaşatmaq, onu dünyəvi dövlətə çevirmək həmin dövrdəki milli-demokratik qüvvələrin qarşısında dayanan ən çətin və ən şərəfli vəzifə idi.

Daşnak-bolşevik qüvvələri 1918-ci ilin martın son 3 günü ərzində xalqımıza qarşı soyqırımı törətdilər. Böyük məharətlə bolşevik libasına bürünmüş ermənilər necə olursa olsun, Bakını əldə saxlamağa, ona yiyələnməyə çalışırdılar. Amma Azərbaycanı, onun müstəqilliyini Bakısız təsəvvür etmək qeyri-mümkün idi. Çünki Göyçənin, Zəngəzurun, Qarabağın və başqa bölgələrin azadlığına doğru uzanan yollar Bakıdan - ölkənin paytaxtından keçirdi. Belə bir şəraitdə, mürəkkəb bir dövrdə özünün ən ağır durumda olduğuna baxmayaraq, Osmanlı dövləti 1918-ci ilin iyununda Azərbaycanla bağladığı "Dostluq və« əməkdaşlıq" müqaviləsinə əsasən, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə hərbi qüvvələrinin bir hissəsini Nuru paşanın rəhbərliyi altında ölkəmizə göndərdi.

1918-ci ilin avqust-sentyabr aylarında Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsi uğrunda gərgin döyüşlər başlandı. Göyçay rayonu ərazisində baş verən ilk döyüşdə daşnak-bolşevik qüvvələri elə ilk həmlədə darmadağın edildi.

Avqustun ilk günlərindən başlayaraq Bakı şəhəri uğrunda qanlı döyüşlər alovlanırdı. Həmin günlərdə Azərbaycanın paytaxtını daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti işğal altında saxlayırdı. Erməni-bolşevik qüvvələri necə olursa-olsun şəhəri əldə saxlamaq istəyirdilər.

Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun zabit və əsgərləri Bakının azad olunması uğrunda qəhrəmancasına vuruşurdular. Artıq döyüşlər Bakı kəndlərinin ətəklərinə qədər gəlib çıxmışdı. 1918-ci il avqustun 3-də Mürsəl paşa Bakıda olan Sentrokaspi Ordusu Komandanına və Erməni Milli Şurası İdarəsinə göndərdiyi teleqramda yazırdı: "Bakıdakı Erməni Şurasının rəhbəri. Bakının ətrafında Türk Qafqaz İslam Ordusunun döyüşdüyünü və şəhəri mühasirəyə aldığını bilirsiniz. Əgər şəhəri döyüşsüz təslim etsəniz, milli və dini mənsubiyyətindən asılı olmayaraq, Bakıdakı bütün insanların hüququ qorunacaq. Xüsusilə Ermənistana getmək istəyən ermənilərə heç bir maneə törədilməyəcəyinə zəmanət verirəm. Əgər şəhər təslim olmasa, axıdılacaq qanlara görə cavabdeh siz olacaqsınız. Şəhəri təslim etməyə razısınızsa, tezliklə cavabınızı göndərin".

Erməni Şurası və Daşnak partiyası bu məktuba cavab vermək əvəzinə, şəhərdə səfərbərlik elan etdi. Avqustun 3-də Stepan Şaumyan gəmi ilə qaçmağa cəhd göstərdi. Şaumyan Sentrokaspi hökumətinin tabeliyində olan donanmanın matrosları onu tutub geri qaytardılar.

Qafqaz İslam Ordusunun komandanlığı teleqramına cavab gəlmədiyinə görə şəhər istiqamətində hücumlarını davam etdirdi. Gərgin keçən döyüşlərdən sonra sentyabrın 15-də Azərbaycan Milli Korpusu və çoxsaylı azərbaycanlı könüllü qəhrəmancasına vuruşa-vuruşa Bakıya daxil olaraq şəhəri erməni-bolşevik qüvvələrindən azad etdilər.

Yaddaşlardan heç vaxt silinməyəcək həmin tarixi günü general Denstervil gündəliyində bu cür qələmə alıb: "Türklərin həlledici hücumları səhər saat 4:00-da başlandı. Saat 11:00-a doğru onlar artıq şəhər ətrafındakı bütün yüksəklikləri ələ keçirib vaxt itirmədən bizim mövqelərə doğru xeyli irəliləmişdilər. Strafforddan, Varlikdən və Vorçesterdən olan hərbi hissələr əla döyüşürdülər. Onların əllərindəki 800 tüfəng, öz artilleriyamız və yerli qüvvələrin artilleriyası (təxminən 40 yaxın top) sayəsində gücünü ikiqat artırıb komandamız altında zirehli avtomobillər də daxil olmaqla 7 minə yaxın türklə savaşın ağırlığını üzərlərinə götürmüşdülər. Qarşıya qoyulan vəzifənin öhdəsindən əla gəlirdilər. Saat 16:00-a yaxın öyrəndim ki, Bakı qoşunları düşmənə müqavimət göstərmək əvəzinə, həmişəki kimi yenə də əsgərlərimi təhlükə altında qoyub mövqedən qaçırlar. Ermənilərdən isə həmişəki kimi fayda yox idi".

Bakının azad edilməsi Azərbaycanın şanlı tarixi kimi tarixə böyük hərflərlə yazıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 15 sentyabr 2018-ci ildə Bakının erməni-bolşevik qüvvələrindən azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda əcdadlarımızın həmin tarixi gün göstərdiyi qəhrəmanlıqdan söz açaraq demişdir: "...Yüz il bundan əvvəl Nuru paşanın, Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğaldan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq və şücaət göstərmişlər. Bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçmüş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır".

Biz bu gün əcdadlarımızın qəhrəmanlığı, şücaəti ilə öyünür, inamla deyirik ki, 15 sentyabr xalqımızın tarixinin qürur dolu səhifəsidir. Xalqımız qəhrəmanlarını heç vaxt unutmayacaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

1918-ci il mayın 28-də Azərbaycan müstəqilliyini elan etdi, İstiqlal Bəyannaməsi imzalandı, Azərbaycan Demokratik Cümhuriyyəti yarandı. Dünyanın bəzi dövlətlərinin bu və ya digər səbəbdən zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycanın müstəqilliyini gözə götürməməsi - istəməməsi siyasi vəziyyəti müharibə həddinə çatdırmışdı.

Azərbaycan xalqı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun döyüşlərində yaxından iştirak etdi. Bu döyüşlər xalqı da əsgərləşdirmişdi....

Azərbaycanın ordusu yox idi, Türkiyənin ordusu var idi. Türkiyə qardaş xalqın azadlıq, istiqlal mücadiləsinə yardım edərdi. Azərbaycan hökuməti Türkiyədən hərbi yardım istəməyi qərara aldı. Danışıqları aparmaq üçün Nağı bəy Şeyxzamanovu göndərməyi məsləhət bildilər.

Görüş baş tutdu. Ənvər paşa Azərbaycanın xahişini yerinə yetirməyə söz verdi.

Osmanlı Sultanı Nuru paşaya "feriq" rütbəsi vermişdi. Türkiyə sultanın siyasətini Qafqazda təmsil etmək hüququ ilə Qafqaz İslam Ordusunun komandanı təyin olunmuşdu.

"Qardaşlarım, babalarım, analarım! Biz böyük bir mücadiləyə gedirik. Qardaş Azərbaycanın taleyinə qara əllər uzanıb. O əlləri biləyindən kəsməyə gedirik. Qoy yağı görsün ki, Can Azərbaycan tək deyil, çətin gündə, ağır vaxtlarda Türkiyə kimi havadarı var", - Qafqaz İslam Ordusunun döyüşləri Nuru paşa Azərbaycana bu əqidə ilə gəldiyini təsdiqləmişdi...

Camaat Gəncədə Nuru paşanı məhəbbətlə qarşılamışdı. Hamı inanırdı ki, Nuru paşa Azərbaycanda qırğınları, talanları dayandıracaq.

Nuru paşa Qafqaz İslam Ordusu ilə Azərbaycana ağsaqqala, ağbirçəyə oğul olmağa gəlmişdi, oğullara qardaş olmağa gəlmişdi, Azərbaycanın dərdini Türkiyənin dərdi bilib gəlmişdi, Azərbaycanın dostunu dost, düşmənini düşmən bilib gəlmişdi, çətin siyasi bir vaxtda Azərbaycana qardaş köməyinə gəlmişdi.

Nuru paşa Azərbaycana gələndən sonra Azərbaycan oğulları da Qafqaz İslam Ordusunun tərkibində bolşevik-daşnak qüvvələrinə qarşı vuruşurdu - Qafqaz İslam Ordusu iki qardaş xalqın xilaskarlıq missiyasını yerinə yetirən ordusu idi.

Nuru paşa Şimal qrupu ilə Bakıya doğru irəliləyirdi. Həmin vaxtlarda Bakıdakı düşmən qüvvələri siyasi (və hərbi!) çaxnaşma içindəydi. Biçeraxov ingilis pulu və ermənilərin mövcud qüvvəsi ilə Bakıya, deməli, Azərbaycana nəzarətə yiyələnməyə niyyətli idi...

Ordu hissələri düşməni Göyçaydan Bakıya kimi sıxışdıra bildi. Komandanlıq Bakı uğrunda döyüşlərdə də qələbə qazanılacağına inanırdı, buna ordunu da inandırmışdı.

Belə bir şəraitdə ordu komandanı Bakıya hücum əmrini bir də götür-qoy etmişdi...

Avqustun 7-də Nuru paşa Ənvər paşaya yazırdı: "Döyüş avqustun 5-də başladı. Güclü zərbədən sonra Şimal qrupunun bölmələri Qurd qapısı yüksəkliyini ələ keçirərək şəhərə xeyli yaxınlaşdı. Ən təhlükəli yerlər nəzarətimiz altına keçdi... İslam Ordusunun Bakını tutacağından qorxuya düşən keçmiş komissarlar da əllərində olan toplarla mövqelərimizi atəşə tutdular. Şimal qrupunun bölmələri xeyli itki verərək geri çəkilməyə məcbur oldu... Bakını yaxın vaxtlarda mütləq azad edəcəyik. Mütləq!.."...

Bakı üzərinə hücumun iki istiqamətli təşkili qələbə ilə nəticələnəcəkdi. Nuru bəy deyirdi: "Sayın Əlağa bəy böyük sərkərdədi. Əraziləri birlikdə nəzərdən keçirdik...".

Top mərmiləri azalmışdı - düşmən ciddi müqavimət göstərsə, döyüşü başa çatdırmaq üçün mərmi çatmayacaqdı. Şimal qrupu Xırdalandan Abşeron yarımadasının Şərq sahilinə qədər olan sahədəki qüvvələri birləşdirirdi. Ona Osman bəy rəhbərlik edirdi. Qərb qrupuna, Bakının Qərb tərəfindəki qüvvələrə Cəmil Cahid bəy, Cənub qrupuna - Puta və Ələt stansiyaları arasındakı qüvvələrə Həlim Pərtov bəy. Nuru paşa ilə Əlağa Şıxlinskinin taktiki qərarı hərbi baxımdan dəyərli, qələbəyə aparan qərar idi - ingilislər, ingilislərin ordusunun komandanı Denstervil niyyətinə çatmayacaqdı...

Hücum 15-ci ordu Bakı ətrafına çatanda başladı. Hücumda Şərq ordular qrupunun komandanı Xəlil paşa da, Nuru paşanın özü də bilavasitə iştirak etdilər. Döyüşçülər onları sıralarında görəndə daha üstün əhval-ruhiyyə ilə vuruşurdular.

Düşmən Qurd qapısı istiqamətində daha ciddi müdafiə səddi qurubmuş. Bu istiqamətdə qəti həmlə, qəti hücum etməyi qərara almışdılar. Bakının Şimalından Süleyman İzzət bəyin rəhbərliyi ilə 15-ci firqə, Qərbdən Mürsəl paşanın rəhbərliyi ilə 5-ci firqə hücuma keçdi. Ümumi komandanlığı Nuru paşa öz üzərinə götürdü. Hücumun idarə edilməsində Əlağa Şıxlinski də yaxından iştirak edirdi...

Düşərgələrdəki çadırlar olduğu kimi saxlanılmışdı. Atəş əmri verilmədi, hücum əmri verildi. Düşmənin müdafiə səddi atəşsiz, gecə vaxtı, süngü döyüşü ilə yarıldı. Nuru paşa ayın 13-də saat 17:00-da Hacıhəsən kəndinin Qərbindəki müşahidə məntəqəsində Əlağa Şıxlinskinin iştirakı ilə Bakının azad olunması üçün hücum əmri imzaladı və əlavə olaraq bildirdi ki, hamı bizi nicat, qurtuluş, azadlıq ordusu bilir. Bu inamı doğrultmalıyıq. Bakı ən geci 36 saat müddətində azad olunmalıdır. Bakı nəzərdə tutulan müddətdən də tez - sentyabrın 15-də azad edildi...

Bakını Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu azad etdi, tam artilleriya generalı Əlağa Şıxlinski döyüşlərdə Nuru paşa ilə nəfəs-nəfəsə idi...

1918-ci il sentyabrın 15-də Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsi planını Nuru paşa ilə Əlağa Şıxlinski hazırlamışdı.

Azərbaycanda Nuru paşaya bəslənilən hörmət və ehtiram türk xalqına minnətdarlığı və xoş duyğuları ifadə edir.

Qafqaz İslam Ordusu tarix yazdı! O tarixdən 105 il keçir....

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Şəhid qanı axmayan torpaqdan Vətən olmaz

Qarazadə Nicat Malik oğlu 24 oktyabr 2002-ci ildə Yardımlı rayonunda dünyaya göz açıb. Bir müddətdən sonra valideynləri Bakı şəhərinə köçüblər. Nicat Ceyranbatan qəsəbəsindəki 2 nömrəli orta məktəbdə oxuyub. 2020-ci ildə, 18 yaşı tamam olanda ordu sıralarına çağırılıb. Hələ kiçik yaşlarından hərbi biliklərə



böyük maraq göstərən əsgər Nicat Qarazadə xidmətinin ilk günlərindən keçirilən dərs və məşğələlərdə fəal iştirak edib. Təlim-məşqlərdə hərbi biliklərə, silahların sirlərinə və döyüş vərdişlərinə həvəslə yiyələnib. Məşğələlər arxada qaldıqca təcrübəsi daha da artıb. Getdikcə artan bu təcrübə Nicatı ordu həyatına daha sıx tellərlə bağlayıb.

Sanki aylar, illər tez keçib. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirən əsgər Nicat Qarazadə ordu sıralarından tərxis olunub. Amma hərbi həyata ürəkdən bağlı olan Nicat bir neçə aydan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordumuzun sıralarına qayıdıb.

Nicat Qarazadə 44 günlük Vətən müharibəsində erməni qəsbkarlarının işğalından azad olunmuş ərazilərimizdə yerləşən hərbi hissələrin birində xidmət edirdi. Hərbçi kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirdi. Qısa müddət ərzində bacarığı və cəsarəti ilə həm komandirlərinin, həm də əsgər yoldaşlarının rəğbətini qazanmışdı.

Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçularından sarsıdıcı zərbələr alan ermənilər geri çəkilməyə məcbur olmuşdular. Düşmən məğlub olsa da, sakit dayanmır, tez-tez təxribatlar törədirdi.

Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı təxribatlarının qarşısının alınması məqsədilə 12-14 sentyabr 2022-ci ildə Azərbaycan Ordusu qətiyyətli cavab tədbirləri həyata keçirdi. Vətəninə, yurduna ürəkdən bağlı olan Nicat Qarazadə də bu əməliyyatda iştirak edirdi. Döyüş hazırlığı yüksək olan Nicat düşmənə nifrət yağdıra-yağdıra ön sıralarda vuruşurdu. Düşmən ilk dəqiqələrdə müqavimət göstərsə də, sonradan zəiflədiyi hiss olundu. Öndə döyüşən Nicat dəqiq atəş zərbələri ilə erməniləri məhv edirdi. Onlar addım-addım geri çəkilirdi. Nicatın gülləri hədəfdən yayınmırdı. Təəssüf ki, döyüşün qızğın çağında - sentyabrın 13-də cəsur əsgər Nicat Qarazadə yaralandı. Həkimlər nə qədər çalışsalar da, onun həyatını xilas edə bilmədilər. Ertəsi gün yaxınları, doğmaları onu İkinci Şəhidlər xiyabanında torpağa tapşırdılar.

Nicat müdafiəsinə qalxdığı Vətən torpaqları uğrunda gedən döyüşlərdə şəhid oldu. Qarazadə Nicat Malik oğlu torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenine və "Vətən uğrunda" medalına layiq görüldü.

Nicatın şəhid olduğu gündən bir il keçir. Bu münasibətlə İkinci Şəhidlər xiyabanında anım mərasimi keçirildi. Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, dövlətimizin müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Şəhidin məzarı üstünə əklillər qoyuldu, gül-çiçəklər düzüldü. Din xadimi Hacı Rasim Xudaverdiyev şəhidlərin ruhuna dualar oxudu.

Abşeron rayon İcra Hakimiyyətinin başçısı Abidin Fərzəliyev çıxış edərək əsgər Nicat Qarazadənin şərəf dolu döyüş yolundan danışdı: "Torpaqlarımızın işğaldan azad olunduğuna görə biz şəhidlərimizə borcluyuq. Onların igidliyi və qəhrəmanlığı sayəsində düşmən geri oturduldu. 30 ilə yaxın işğala son qoyuldu. Bu gün işğaldan azad olunan yerlərdə quruculuq işləri aparılır. Bu quruculuq işləri şəhidlərimizə qoyulan ən dəyərli abidədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncam və tapşırıqlarına uyğun olaraq dövlət tərəfindən şəhid ailələrinə və müharibə vetertanlarına böyük diqqət və qayğı göstərilir".



Millət vəkili Bəhruz Məhərrəmli də çıxış edərək dedi ki, valideyn üçün övlad çox qiymətlidir. Ona görə də onu itirəndə ağrı-acısına dözmək çox çətin olur. Amma Vətən övladdan da qiymətlidir. Vətəni yadelli işğalçılardan qorumaq oğulların ən müqəddəs borcudur. Təəssüflər olsun ki, bu şərəfli borcu yerinə yetirərkən oğullarımız şəhid olurlar. Əsgər Nicat Qarazadə də yurdumuzu qoruyan əsgərlərdən biri idi. O, üzərinə düşən döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Biz belə cəsur oğulların qəhrəmanlığını unutmayacaq, onların xatirələrini həmişə əziz tutacağıq.

Şəhidin babası Qaraxan Qarayev çıxış edərək Nicatın qəhrəmanlığından söz açdı. Onun uşaqlığından, yeniyetməliyindən danışdı. Nəvəsinin xatirəsini əziz tutduqlarına görə mərasimə toplaşmış insanlara dərin minnətdarlığını bildirdi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycanlı qadın hərbçi BMT tərəfindən təltif olunub


CERTIFICATE
OF COMMENDATION
THIS CERTIFICATE IS PROUDLY PRESENTED TO
MAJOR LATIFA RUSTAMOVA
In recognition of meritorious and valuable service whilst assigned to
The United Nations Mission In the Republic of South Sudan
24 AUGUST 2023
Date
Narendra Singh
Brig. Gen.
Commander, Sector South, UNMISS

*Azərbaycanlı qadın hərbçi Lətifə Rüstəmova BMT-nin sülhməramlı missiyasındakı nümunəvi xidmətinə görə dünya təşkilatı tərəfindən təltif olunub.*




AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın BMT yanında daimi nümayəndəliyi sosial şəbəkədə bildirib.

"Cənubi Sudanda BMT missiyasında göstərdiyi nümunəvi hərbi xidmətə görə həm BMT medalı, həm də tərifnamə ilə təltif edilmiş ilk qadın sülhməramlı mayor Lətifə Rüstəmova ilə biz ikiqat fəxr edirik", - daimi nümayəndəlik qeyd edib.

# Xəbərlər: hadisələr, faktlar

## Qazaxıstan pilotsuz uçuş aparatları istehsal etməyi planlaşdırır



Qazaxıstan Respublikası müdafiə nazirinin müavini Sultan Kamaletdinov ölkə ordusunun pilotsuz uçuş aparatları ilə təchiz edilməsi üzrə aparılan işlərdən bəhs edib.

"Kazinform" informasiya agentliyi xəbər verir ki, nazir müavini Senatda keçirilən brifinqdə bildirib: "Bu çox mühüm məsələdir. Elə indicə Senatın plenar iclasında da bu məsələ deputatların da marağına səbəb oldu. Son hərbi münaqişələrin təhlili PUA-ların tətbiq edilməsinin aktuallığını göstərir, biz bunu başa düşürük və münasib tədbirlər görürük. Hal-hazırda biz bu aparatları həm xaricdən alırıq, həm də özümüz onların hazırlanması ilə məşğul oluruq".

O, Qazaxıstanda PUA-ların istehsalı prosesinin yoluna qoyulması ilə bağlı planlardan danışıb.

"Bu gün bizdə İsraildə, ÇXR-də istehsal olunmuş PUA-lar mövcuddur, Türkiyə şirkətləri ilə birgə istehsal müəssisəsinin yaradılması üzrə iş gedir. Bundan başqa, hal-hazırda öz hazırladığımız PUA-ların nümayiş sınaqları keçirilir", - deyə o qeyd edib.

## ABŞ Cənubi Koreyaya dəyəri 5 milyard dollardan çox olan F-35 qırıcıları satıb



ABŞ Dövlət Departamenti Cənubi Koreyaya 5,06 milyard dollara F-35 qırıcı təyyarələri və müvafiq avadanlıqların mümkün satışını təsdiqləyib.

Bu barədə ölkənin Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyi məlumat yayıb.

Məlumata görə, söhbət 25-ə qədər qırıcının satışından gedir. Departament əmin edib ki, qırıcıların tədarükü ABŞ-ın döyüş hazırlığına xələl gətirməyəcək və regionda hərbi balansı dəyişməyəcək.

## Şimali Koreya Yapon dənizi istiqamətində ballistik raket buraxıb



Koreya Xalq Demokratik Respublikası (KXDR) Yapon dənizi istiqamətində ballistik raket buraxıb.

Bu barədə Yonhap agentliyi Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahına istinadla məlumat yayıb.

Yaponiyanın Müdafiə Nazirliyi də Şimali Koreyanın ballistik raket buraxdığını təsdiqləyib. Raketin xarakteristikası və uçuş detalları barədə hələ məlumat yoxdur.

KXDR-in son raket buraxılışı ölkə lideri Kim Çen Inın Rusiyaya səfəri dövrünə təsadüf edib.

Qeyd edək ki, Şimali Koreya cari ildə sonuncu dəfə avqustun 30-da 2 qısamənzilli ballistik raket sınağı həyata keçirmişdi. Ötən günlərdə isə KXDR taktiki nüvə silahı ilə təchiz edilmiş yeni sualtı qayığını suya buraxıb.

## Somalidə "Əl-Şəbab" radikal qruplaşmasının 30 yaraqlısı öldürülüb



Somali hökumət qüvvələri beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək ölkənin mərkəzi hissəsində "Əl-Şəbab" ekstremist qruplaşmasının 30 silahlısını məhv edib.

Bu barədə Somalinin informasiya nazirinin müavini Əbdirəhman Yusuf Əl-Adala məlumat verib.

Onun sözlərinə görə, əməliyyat Əl-Qaras şəhəri yaxınlığındakı Qalmuduq ştatında həyata keçirilib. Hökumət qüvvələrinin itkiləri barədə məlumat verilmir.

Qeyd edək ki, "Əl-Şəbab" 2004-cü ildə Somalidə yaradılıb. Onun 10 minədək döyüşçüsü var və onlar əsasən ölkənin mərkəzi və cənub bölgələrində fəaliyyət göstərirlər.

**AZƏRTAC-ın materialları əsasında**

# "Heydər Əliyev İli" çərçivəsində növbəti tədbir keçirildi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Azərbaycan Ordusunda da rəğbətlə qarşılandı. Bu istiqamətdə keçirilən tədbirlər ordumuzun şəxsi heyətinin Ulu Öndərə olan ehtiramının ifadəsidir.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində "Heydər Əliyev İli" çərçivəsində növbəti tədbir keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə dahi şəxsiyyətin həyatı, çoxşaxəli dövlətçilik fəaliyyəti, müstəqil Azərbaycan dövlətini siyasi, iqtisadi böhranlardan xilas etməsi haqqında ətraflı danışıldı.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Turac Yusifova Ulu Öndərin Azərbaycan naminə fəaliyyətindən, həyata keçirdiyi böyük islahatlardan ətraflı məlumat verərək iftixarla bildirdi ki, Heydər Əliyev Azərbaycan tarixinin ən müdrik, uzaqgörənliyi ilə seçilən dövlət xadimlərindəndir.

Ulu Öndərin xalqa müraciətlə dediyi fikri xatırlatdı: "...İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam".



Müasir Azərbaycan dövləti Azərbaycan xalqının Ümummilli Liderinin siyasi dühası, dövlətçilik fenomeni ilə dünya dövlətləri sırasında önəmli yer tutdu, regionun ən güclü, qüdrətli dövlətinə çevrildi. Bu siyasi kurs dahi tarixi şəxsiyyətin layiqli varisi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Keçən müddət ərzində ölkəmizdə elmi, texniki, iqtisadi, siyasi hərbi sahələrdə əsaslı inkişaf tempi təmin edilmiş, ordu quruculuğu sahəsində tarixi nailiyyətlər qazanılmışdır. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixinə yeni Zəfər salnaməsi kimi yazılmışdır. Tarixi qələbənin əldə edilməsinin əsası da məhz Ulu Öndər tərəfindən qoyulmuşdu. Qətiyyətlə demək olar ki, Heydər Əliyev yolu ilə uğurla addımlayan xalqımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atacaqdır.



Sonra Vətən müharibəsinin iştirakçıları - Şamxal İsrafilzadə, Mehman Novruzov çıxış edərək rəşadətli ordumuzun tarixi qələbəsindən söhbət açdılar. Bildirdilər ki, onlar indi də Müzəffər Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırdırlar.

Sonra hərbi qulluqçulara hədiyyələr təqdim edildi.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Vətən uğrunda" ansamblının solistləri Sevinc Nəsirova, Arif Səfərov və Samir Məmmədov vətənpərvərlik mövzusunda və Ulu Öndərə həsr olunmuş mahnılar ifa etdilər. Konsert proqramı tədbir iştirakçılarında xoş əhval-ruhiyyə yaratdı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Mayya sivilizasiyasının ən böyük memarlıq abidəsi - Tikal Milli Parkı



Tikal Milli Parkı Mərkəzi Amerikanın mərkəzində, Qvatemalanın şimalında - Peten bölgəsində yerləşir. Bu günümüzə qədər gəlib çatmış ən əhəmiyyətli Mayya memarlıq abidələrindən biridir. Tikal və onun ətrafı, Qvatemala hökuməti tərəfindən 1955-ci ilin mayında eyniadlı milli parka daxil edilmişdir. Milli park 57583 hektar ərazini əhatə edir. 1979-cu ildə Maya sivilizasiyasının təbii qoruğu və mədəni qorunan ərazisi kimi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Tikal şəhəri Mayyaların ən güclü krallıqlarından biri olan Mutul krallığının paytaxtı olub. Tikalda hindu məskəni hələ e.ə. VII əsrdən mövcud idi. B.e. I-IX əsrlərdə şəhər Mayya sivilizasiyasının mühüm mərkəzlərindən idi.

Tikal xarabalıqları haqda ilk məlumatlar XVII əsrə aid edilir. Şəhərin böyük məbədlərinin əksəriyyəti XVIII əsrdə tikilmişdir. Tikal şəhərinin mərkəzi hissəsində 6 ədəd pilləli ehram (platforma), üzərində isə məbəd yerləşir. I Məbəd 695-ci ildə, III Məbəd 810-cu ildə inşa edilmişdi. 72 metr hündürlüyündə olan və şəhərin ən böyük IV məbədpiramidası 720-ci ildə, V Məbəd 750-ci ildə, VI Məbəd isə 766-cı ildə tikilmişdi. Digər tikililər sırasında şəhər hakimlərinin saraylarını, daha kiçik ölçüdə olan məbədləri, top oyunları məqsədilə tikilən sahəni (qədim top oyunları üçün tikilmiş stadionlar Mayya şəhərləri üçün tipik idi. Oyun çox güman ki, ritual xarakter daşıyırdı) qeyd etmək olar. Təkcə antik şəhərin mərkəzi hissəsi 3000 binanı əhatə edir.

Parkda minlərlə məhv edilmiş struktur var, onların çoxu qazılmamışdır.

Park əhəngdaşı örtülü ərazidə yerləşir. İqlimi rütubətli tropikdir. İl ərzində quraqlıq mövsümü yağışlı mövsümə keçir və temperatur 15 ilə 35°C arasında dəyişir. 50 metrə qədər yüksələn tacları olan sıx meşə ilə əhatə olunub. Ən çox yayılmış ağaclar Seyba, Ətirli sidr, Sapodilla, Qırmızı ağac və digər qiymətli ağaclardır.

Tikal Milli Parkında müxtəlif növ heyvanların, çoxlu sayda quşların "evi"-dir. Suda-quruda yaşayanlar da qoruğun açıq yerlərində rahatca yaşayır.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanlı idmançı Slovakiyada keçirilmiş qaydasız döyüş üzrə yarışda qalib gəlib



Slovakiyanın Povajska-Bistritsa şəhərində keçirilmiş "Real Fight Arena" (RFA 12 Free Prelims) turnirində MMA üzrə peşəkar azərbaycanlı idmançı Yüksəl İbrahimov növbəti uğura imza atıb.

Həmyerlimiz Qırğızıstandan olan rəqibini birinci raundda texniki nokautla məğlub edib. O, qalib elan olunan zaman Azərbaycan bayrağını dalğalandırıb.

Qeyd edək ki, bu, idmançımızın RFA-da ardıcıl ikinci qələbəsidir. Yüksəl İbrahimov peşəkar K-1 və MMA döyüşçüsüdür. 2019-cu ildən etibarən Slovakiyada qaydasız döyüş, boks və kikboksinq üzrə dərs deyir. Eyni zamanda K-1 və MMA üzrə yarışlarda iştirak edir.

## Şahmatçılarımız Avropa çempionatında möhtəşəm nəticəyə imza atıblar



Rumıniyanın Mamaya şəhərində şahmat üzrə yeniyetmə oğlan və qızlar arasında Avropa çempionatına yekun vurulub.

Azərbaycan şahmatçıları mötəbər yarışda böyük uğur qazanıblar.

Məhəmməd Kazımzadə, Mehriban Əhmədli (hər ikisi U-8), Əhməd Xaqan (U-12), Rüstəm Rüstəmov (U-14) bütün rəqibləri qabaqlayaraq, öz yaş kateqoriyalarında qızıl medala layiq görülüb.

18 yaşlılar arasında çıxış edən Ayan Allahverdiyeva və Xəzər Babazadə gümüş medal əldə edib. 12 yaşlı qızların mübarizəsində Səadət Bəşirli çempionatı bürünc medalla başa vurub.

Beləliklə, Azərbaycan şahmatçıları Avropa çempionatından 4 qızıl, 2 gümüş və 1 bürünc medalla qayıdırlar.

Qeyd edək ki, ümumilikdə Avropa çempionatında 47 ölkədən 928 şahmatçı mübarizə aparıb.

## Azərbaycan millisinin Avropa Superfinalı üçün heyəti açıqlanıb



Sentyabrın 19-dan 25-dək İtaliyanın Alghero şəhərində təşkil olunacaq Avropa Superfinalında iştirak edəcək çimərlik futbolu üzrə Azərbaycan milli komandasının heyəti müəyyənləşib.

Baş məşqçi Zeynal Zeynalov 12 oyunçuya dəvət göndərib.

B qrupunda İsveçrə, Türkiyə və Rumıniya komandaları ilə qarşılaşacaq millimizin oyunlarının təqvimini və heyətə cəlb olunan futbolçuların siyahısını təqdim edirik.

Qapıçılar: Elçin Qasımov, Vaqif Şirinbəyov.

Oyunçular: Amid Nəzərov, Elşad Manafov, Orxan Məmmədov, Sabir Allahquliyev, Cəmərd Baxşəliyev, Hüseyn Axundov, Ramil Əliyev, Kamran Qürbətov, İsa Zeynallı, Tural Qurbətov.

**19 sentyabr**
12:15. Azərbaycan - Türkiyə
**20 sentyabr**
12:15. Azərbaycan - Rumıniya
**21 sentyabr**
16:00. İsveçrə - Azərbaycan.

Qeyd edək ki, oyunların başlama saatı Bakı vaxtı ilə göstərilib.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 531 Nüsxə 4760 |